# HÜSEYNOV ŞAHLAR İSA OĞLU



Hüseynov Şahlar 26 noyabr 1968-ci ildə Qərbi Azərbaycanın Razdan rayonunun Hankavan kəndində anadan olmuşdur. 1985-ci ildə doğma kəndlərində orta təhsilini rus dilində başa vurmuş və peşə məktəbində sürücülük peşəsinə yiyələnmişdir. 1986-88-ci illərdə Moskva şəhərində hərbi xidmətdə olmuşdur. Şahların ailəsi 1988-ci ildə erməni təcavüzü nəticəsində öz dədə-baba yurdlarından zorla qovulmaları nəticəsində Gəncə şəhərində məskunlaşmışdır. Ordudan tərxis olunduqdan sonra ailəsinin yanına Gəncəyə qayıtmış və 1990-cı ildə sənədlərini Gəncə şəhər 27 saylı texniki-peşə məktəbinə vermişdir. 1991-ci ildən isə Gəncə Alüminum Oksidi İstehsalat Birliyində çilingər işləməyə başlamışdır. 1992-ci ildə könüllü olaraq Gəncə batalyonunun tərkibinə qoşularaq döyüşlərdə fəal iştirak etmişdir. Erməni dilini bildiyi üçün kəşfiyyatlarda iştirak etmiş, döyüş yoldaşlarını bir neçə dəfə düşdükləri çətin vəziyyətlərdən xilas etmişdir. 1992-ci il aprelin 10-da Marquşevan kəndində uzun sürən döyüşdə düşmən sayca üstün olsa da xeyli sayda canlı qüvvə və hərbi texnika itirərək geri çəkilməyə məcbur olmuşdur. Bu döyüşdə Şahlar Hüseynov böyük şücaət göstərərək qəhrəmancasına həlak olmuşdur. Gəncə şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Hüseynov Şahlar İsa oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Gəncə şəhərində adına küçə var.